**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**FAKULTƏ BİZNES VƏ MENECMENT**
**«Biznes və logistika» kafedrası**

**"Qlobal logistika və təchizat sistemi" fənni üzrə**
işçi tədris proqramı
(sillabus)

Təsdiq edirəm
«Biznes və loqistika» kafedrasının müdiri,
dos.Əliyev M.Ə.
09 sentyabr 2025-cü il

I. Fənn haqqında məlumat

| | |
|---|---|
| Fənnin kodu | 00713 |
| Fənnin növü | seçmə |
| Tədris ili | 2025/2026 |
| Tədris semestri | payız |
| Tədris forması | əyani |
| Qrup | 946;948 |
| Tədris yükü | 45 saat ( 30 saat mühazirə, 15 saat seminar) |
| Kredit sayı | 4 |

II. Müəllim haqqında məlumat

Fənni tədris edən müəllim :müəllim İsmayılova G.K.
e-mail: gulare.ismailova1@gmail.com

**Bakı -2024**

## "Qlobal loqistika və təchizat sistemi" fənninin tədrisinin əhəmiyyəti

***Beynəlxalq biznes əməliyyatlarının inkişafı müasir loqistika və təchizat sistemlərinin səmərəli təşkili ilə şərrtlənir. Dünya iqtisadi sisteminin müasir təmayüllərindən biri iri beynəlxalq firma və korporasiyaların, eləcə də milli şirkətlərin son illlərdə əlavə dəyər yaratma fəaliyyətlərini getdikcə qloballaşdırmalarıdır. Firma və müəssisələr beynəlxalq bazarlarda fəaliyyətini genişləmdirməyə çalışır, eləcə də qlobal paylama sistemləri vasitəsilə təmin edilən müştərilərə xidmət göstərirlər. Qlobal təchizat sistemində şirkətlər dəyər yaratma fəaliyyətlərini (xüsusilə istehsal və loqistika sahəsində) optimal şəkildə müəyyən etməli və əlaqələndirməlidirlər. Müasir qlobal loqistika və təchizat sisteminin təşkili xüsusiyyətlərinin öyrənilməsi əhəmiyyətli dərəcədə aktualdır.***

## "Qlobal loqistika və təchizat sistemi" fənnin tədrisinin məqsədləri

***Bu fənn qlobal loqistika fəaliyyətində təchizat məsələlərinin həllində istifadə olunan strateji planlaşdırma üsulları haqqında təcrübələri öyrənir, sistemli bilik və səriştələr verir. Əsas diqqət biznes təcrübəsində istifadə olunan üsullara yönəldilir. Bu fənnin öyrənilməsi təchizat sisteminin təşkili sahəsində ixtisaslaşan kopporasiyaların təcrübəsini, eləcə də müasir planlaşdırma və proqram təminatının tətbiqi, müasir analitik yanaşmaların və strateji həllərin mənimsənilməsi məqsədi daşıyır.***

Fənnin öyrənilməsinin əsas vəzifələrini aşağıdakılar təşkil edir
Qlobal loqistika sisteminin inkişaf proseslərinin öyrənilməsi
Təchizat sistemi və onun əsas anlayışları haqqında biliklər formalaşdırmaq
Təchizat sisteminin fəaliyyətinə konseptual yanaşmaların öyrənilməsi
Qlobal loqistika sahəsində beynəlxalq əməkdaşlıq proseslərinin əsas xüsusiyyətlərini öyrənmək
Təchizat sisteminin inkişafının gələcək isyiqamətlərini öyrənmək
Azərbaycanın biznes əlaqələrinin qlobal loqistika sisteminə inteqrasiya formalarını və xüsusiyyətlərini öyrənmək

**Tələbənin kursun mənimsəməsi nəticəsində formalaşan kompetensiyaları**.

Qlobal Logistika tələbələri təchizat zənciri kontekstində qlobal logistikanın rolu ilə tanış edəcək. Tələbələr qlobal logistikanda beynəlxalq təchizat zəncirinin idarə edilməsi, xarici bazarlara giriş metodları, inkoterms, beynəlxalq ticarət sənədləri və beynəlxalq sığortanın digər sahələrində necə təsir etdiyini öyrənəcəklər. Qlobal logistikanın əhatə etdiyi digər sahələrə beynəlxalq nəqliyyat, qablaşdırma və təhlükəsizlik rejimləri daxildir.

« Qlobal loqistika və təchizat sistemi » fənninin mənimsənilməsi nəticəsində təhsil alan aşağıdakı peşə səlahiyyətlərinə malik olur:

Qlobal loqistikanın sahəsində istifadə olunan terminologiya ilə tanış olur.

Qlobal loqistikanın korporativ funksiyalarla əlaqəsi və rolunu araşdırmaq.

Təchizat zəncirinin tərkib hissəsi kimi sifarişin idarə edilməsi, inventar nəzarəti, nəqliyyat və paylama kanalları ilə loqistika funksiyalarının interfeysini müəyyən etmək.

Təchizat zənciri strategiyaları və strateji problemləri haqqında ümumi bilik və təcrübələri mənimsəmək.

- təşkilatların əməliyyat (istehsalat) fəaliyyətinin idarə edilməsində strateji, taktiki və operativ qərarların qəbul edilməsi metodlarını tətbiq etmək;
- qlobal loqistika sahəsində peşəkarlıq fəaliyyətinin təşkili və idarə edilməsi üçün lazım olan informasiyanın toplanmasını, işlənib emal olunmasını və qiymətləndirilməsini həyata keçirməyi bacarmaq.

**"Qlobal loqistika və təchizat sistemi" fənninin mənimsənilməsi nəticəsində təhsil alan bilməli, bacarmalı və aşağıdakı peşə səlahiyyətlərinə malik olmalıdır:**

**Bilməlidir:**

- Qlobal loqistika fəaliyyəti təmin edən müasir loqistik sistemlərin quruluşunu
- Əməliyyatların əsaslandırması və loqistik qərar qəbul etmə ilə bağlı yanaşmaları
- İstehsal sistemlərinin və əmtəə bazarının loqistik infrastrukturu ilə nəqliyyat xidmətləri bazarı arasında qarşılıqlı əlaqələri

**Bacarmalıdır:**

-Biznes məlumatlarını toplamaq, təhlil etmək və qiymətləndirmək və bir sıra strateji alətlərdən istifadə edərək empirik göstəriciləri sistemləşdirmək və prosesdə tətbiq etmək

- Mürəkkəb biznes məsələlərini müxtəlif nöqteyi-nəzərdən şərh etmək və təhlil etmək və akademik ədəbiyyatı və digər müvafiq məlumat mənbələrini tənqidi şəkildə nəzərdən keçirmək, müxtəlif hüquqi, sosial-mədəni və iqtisadi mühit şəraitində fəaliyyət göstərən bilən beynəlxalq təchizat zəncirlərini tərtib etmək
- Qlobal logistik məsələlər üzrə konseptual bilikləri tətbiq edərkən iqtisadi həyat dövrlərini nəzərə almaq.

**Praktik bacarıqlara və multikultural kompetentliyə malik olmalıdır:**

- peşəkar davranış, şəxsi motivasiya və planlaşdırma bacarıqları baxımından təşəbbüs göstərmək və şəxsi məsuliyyət daşımaq.
- işgüzar tətbiqlər üçün kommunikasiya və informasiya texnologiyalarından istifadə etməklə ingilis dilində şifahi, yazılı və elektron formatlarda səmərəli ünsiyyət qurmaq, hesabatlar hazırlayıb təqdim etməyi bacarmaq.

**Fənn üzrə saatların həcmi**

Fənnin tədrisi 45 saat nəzərdə tutulmuşdur: 30 saat mühazirə və 15 saat seminar dərsləri. Tövsiyə olunan nəzarət formaları – aralıq və yekun imtahandır.

**“Qlobal loqistika və təchizat sistemi” fənninin mövzularının tematik planı üzrə dərs saatlarının bölgüsü**

Fənnin öyrənilməsinin keyfiyyət parametrlərinin yaxşılaşdırılması üçün müxtəlif metodlardan (interaktiv mühazirə, problem seminarlar, qrup diskussiyalar) istifadə olunur.

“Qlobal loqistika və təchizat sistemi” fənninin tematık planı və strukturu

| № | Mövzu | Mühazirə | Seminar |
|---|---|---|---|
| | **I BÖLMƏ. QLOBAL LOQİSTİKANIN ƏSASLARI VƏ TƏCHİZAT SİSTEMİNİN FƏALİYYƏTİ** | | |
| Mövzu 1 | Qloballaşma şəraitində xarici ticarətin inkişaf təmayülü və təşkili | 2 | 2 |
| Mövzu 2 | Təchizat sisteminin qloballaşması, əlaqələrin prinsip və metodları | 2 | |
| Mövzu 3 | Təchizat sistemində strategiyalar | 2 | 2 |
| | **II BÖLMƏ. QLOBAL LOQİSTİK TƏCHİZAT ZƏNCİRLƏRİNDƏ ƏMƏLİYYATLARIN TƏŞKİLİ** | | |
| Mövzu 4 | Təchizat zəncirlərində nəqliyyat xidmətləri | 2 | |
| Mövzu 5 | Nəqliyyat sisteminin təhlükəsizliyi və onun təmin edilməsində qlobal təşəbbüslər | 2 | 2 |
| Mövzu 6 | Loqistika xidmətləri sahəsində ixtisaslaşmış qlobal şirkətlərin rolu və fəaliyyəti | 2 | |
| Mövzu 7 | Satınalma prosesi strateji fəaliyyət kimi: üsul və vasitələri | 2 | 2 |
| Mövzu 8 | Qlobal təchizat zəncirlərində anbar proseslərinin planlaşdırılması | 2 | |
| Mövzu 9 | Təchizat zəncirlərindəki texnologiyalar və əşyalar interneti (IoT) | 2 | 2 |
| | **III BÖLMƏ. TƏCHİZAT ZƏNCİRLƏRİNİN İNKİŞAFI** | | |
| Mövzu 10 | Təchizat zəncirlərində risklərin idarə edillməsi | 2 | |
| Mövzu 11 | Logistika sistemlərinin və təchizat zəncirlərinin davamlılığı | 2 | 2 |
| Mövzu 12 | Əks logistik şəbəkələrin növləri, inkişaf stimulları və şərtləri | 2 | |
| Mövzu 13 | Xidmət təchizat zənciri modelləri və müasir təcrübələr | 2 | 2 |
| Mövzu 14 | Qlobal loqistika və təchizat zəncirlərində idarəetmənin | 2 | |

| | | | |
|---|---|---|---|
| | tətbiqi (qərarların qəbulu) | | |
| Mövzu 15 | Qlobal təchizat zəncirlərinin inkişaf istiqamətləri | 2 | 1 |
| | **Cəmi** | **30** | **15** |

Fənnin maddi-texniki təminatı:

Proqram təminatı: Microsoft Power Point, Microsoft Office Word, Microsoft Office Excel

Texniki təminat: mühazirələr təqdimatların nümayiş etdirilməsi üçün multi-mediya avadanlığı və lövhələri ilə təmin olunmuş ixtisaslaşdırılmış auditoriyalarda keçirilir.

**Əsas ədəbiyyat**


1. John Mangan, Chandra Lalwani Global Logistics and Supply Chain Management 2016, Wiley
2. Contemporary Logistics, Paul R. Murphy, Jr. A. Michael Knemeyer 12th Edition Pearson Education Limited 2018
3. Майкл Хуго Логистика, руководство для профессионалов, 3-е издание, перевод с английского, Москва, Эксмо 2020, 256 с.


**Əlavə ədəbiyyat**


4. Logistics Concept, Japan Institute of Logistics Systems, January 10, 2006
5. Международная логистика : учебно-методическое пособие, Р.Б. Ивуть, А.Г. Баханович, Т.Р. Косовская. –Минск : БНТУ, 2017. – 93 с.
6. Global Logistics and Supply Chain Strategies for the 2020s: Vital Skills for the Next Generation 1st ed. 2023, by Rico Merkert, Kai Hoberg Springer
7. Ankur Huria, Facilitating Trade and Logistics for ECommerce Building Blocks, Challenges and Ways Forward, The World Bank December 2019
8. Mehmet Ragıp Görgün, Uluslararası Lojistik, 2020
9. Логистика и управление цепями поставок : учебник для вузов / под редакцией В. В. Щербакова. – Москва : Изд.во Юрайт, 2022. – 582 с.
10. Основы логистики:конспект лекций / Г. Г. Левкин, Н. Б. Куршакова, К. О. Дзюбина. – М.-Берлин: Директ-Медиа, 2016. – 248 с.
11. Tedarik Zinciri Yönetimi. *T.C.* Anadolu Üniversitesi Yayini.Müəllif kollektivi. 2019
12. Quliyev M.Y. Beynəlxalq istehsal sistemlərinin transformasıyası və müasir sənaye siyasəti modelləri. Baki – "Msv Nəşr" Mmc – 2022
13. Həsənov E. Təchizat zəncirinin idarə olunmasının əsasları və terminlər lüğəti. B.,Qanun nəşriyyatı,2022


**İnternet-resurslar:**


14. «Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi» – Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir https://azertag.az/store/files/
15. «Nəqliyyat haqqında» Azərbaycan Respublikasının Qanunu, 11 iyun 1999-cu il http://www.e-qanun.az/framework/4764

16. Port of Baku and Port Alat: http://portofbaku.com/en/
17. BMT layihəsi Azərbaycana "Bir kəmər, bir yol" təşəbbüsü üçün dayanıqlı inkişaf siyasətləri formalaşdırmağa kömək edir, 13 oktyabr 2021, https://azerbaijan.un.org/az

**SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

**FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ** ***(Əyani təhsilalma forması üzrə)***

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |